**Lotereyalar haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU[1]

Bu Qanun Azərbaycan Respublikasında lotereyaların təşkili və keçirilməsinin qaydalarını, lotereyaların təşkilatçılarının və iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir.

M a d d ə 1 . **Lotereyalar haqqında qanunvericilik**

*1.1.* Lotereyalar haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

*1.2. Ələt azad iqtisadi zonasında lotereyalar sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.*[2]

M a d d ə 2 . **Bu Qanunda istifadə olunan əsas anlayışlar**

2.0. Bu Qanımda istifadə olunan əsas anlayışlar aşağıdakılardır:

2.0.1. **lotereya** - lotereya təşkilatçısı tərəfindən lotereya biletlərinin ~~(onlara bərabər tutulan digər məlumat daşıyıcılarının)~~ yayılması, lotereya iştirakçıları arasında uduş fondunun *(virtual lotereya istisna olmaqla)* oynanılması və uduşlu lotereya biletlərinin ~~(onlara bərabər tutulan digər məlumat daşıyıcılarının)~~ sahiblərinə uduşların verilməsi (ödənilməsi) yolu ilə keçirilən kütləvi oyun;[3]

2.0.2. **stimullaşdırıcı lotereya** - malın (işin, xidmətin) satışını stimullaşdırmaq məqsədilə həmin malı (işi, xidməti) almış şəxslər arasında keçirilən lotereya ~~forması~~;[4]

2.0.3. **tirajlı lotereya** - uduş fondu əvvəlcədən təyin edilmiş vaxtda oynanılan lotereyanın keçirilməsi forması;

2.0.4. **ani lotereya** - uduşu lotereyanın iştirakçısı tərəfindən lotereyada iştirak hüququnu təsbit edən lotereya bileti əldə etdikdən dərhal sonra digər lotereya iştirakçılarından asılı olmadan müəyyən olunan lotereyanın keçirilməsi forması;

*2.0.5. **məqsədli lotereya** – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə mədəniyyət, sosial, səhiyyə, idman, təhsil və digər dövlət əhəmiyyətli layihələrin maliyyələşdirilməsi məqsədilə keçirilən lotereya forması;*[5]

*2.0.6. **uduş fondu** – virtual lotereya istisna olmaqla, lotereyanın şərtlərinə uyğun lotereya təşkilatçısının uduş fonduna qoyduğu və geri götürə bildiyi əlavə vəsait də daxil olmaqla, lotereyada oynanılan və uduş şəklində ödənilməsi nəzərdə tutulan pul vəsaitlərinin və ya verilməsi nəzərdə tutulan digər əmlakın (əşyanın) və ya göstərilməsi nəzərdə tutulan xidmətlərin (işlərin) məcmusu (dəyəri);*[6]

2.0.7. **uduş fondunun oynanılması** - lotereyanın şərtlərinə uyğun, lotereya biletinin uduşlu olub-olmamasının təsadüf prinsipi əsasında müəyyənləşdirildiyi və uduş fondunun müəyyən hissəsinə mülkiyyət hüququnun yarandığı proses;

*2.0.8. **uduş** – lotereyanın şərtlərinə əsasən uduşlu hesab edilən lotereya biletinin sahibinə*

*ödənilməli olan pul vəsaiti və ya verilməli olan digər əmlak (əşya) və ya göstərilməli olan xidmətlər (işlər);*[7]

2.0.9. **lotereya bileti** - lotereyada iştirak hüququ verən, uduşlu olduğu halda uduş fondunun müəyyən hissəsinə *və (və ya) uduşa* mülkiyyət hüququnu təsdiq edən sənəd, *ona bərabər tutulan digər məlumat daşıyıcısı və ya elektron kod;*[8]

2.0.10. **lotereya təşkilatçısı** - öz adından və ya digər şəxsin tapşırığı ilə lotereyanı təşkil edən və keçirən hüquqi şəxs;

2.0.11. **lotereya iştirakçısı** - *18 yaşına çatmış, könüllü şəkildə* lotereyada iştirak edən lotereya biletinin ~~(ona bərabər tutulan digər məlumat daşıyıcısının)~~ sahibi;[9]

2.0.12. **stimullaşdırıcı lotereyanın obyekti** - satışı stimullaşdırıcı lotereya ilə müşayiət olunan mal (iş, xidmət);

2.0.13. **tiraj komissiyası** - tirajlı lotereyada uduş fondunun oynanılmasının lotereyanın şərtlərinə uyğun keçirilməsinə nəzarət edən və onun nəticələrini rəsmiləşdirən fiziki şəxslər qrupu;

2.0.14. **lotereyanın şərtləri** - lotereya təşkilatçısı tərəfindən tərtib edilmiş, lotereyanın təşkili və keçirilməsi ilə bağlı məlumatlan əks etdirən ~~rəsmi~~ sənəd;[10]

*2.0.15. **səlahiyyətli orqan** – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);*[11]

*2.0.16. **elektron lotereya** – lotereya iştirakçıları arasında uduş fondunun lotereya terminalları və ya virtual mühit vasitəsilə oynanılması həyata keçirilən lotereya;*[12]

*2.0.16-1. **virtual lotereya** – uduşlu lotereya biletlərinin sahiblərinə uduşların təqdim edilməsi ilə müşayiət olunan və (və ya) mərc imkanları yaradan, kompüter alqoritmləri vasitəsilə keçmişdə baş vermiş real idman və digər yarışlar sırasından seçilmiş yarışlar əsasında və (və ya) kompüter alqoritmləri vasitəsilə simulyasiya edilən və ya yaradılan lotereya forması;*[13]

*2.0.17. **vətəndaş qüsursuzluğu** – mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərə görə məhkumluğun olmaması, müvafiq vəzifəni tutmasına və ya peşə fəaliyyəti ilə məşğul olmağına məhkəmə qərarı ilə qoyulmuş qadağanın olmaması;*

*2.0.18. **virtual mühit** – lotereya təşkilatçısının lotereyaların oynanılması üçün yaratdığı telekommunikasiya şəbəkələri, informasiya sistemləri və şəbəkələri, informasiya-telekommunikasiya şəbəkələri, o cümlədən internet şəbəkəsi, mobil rabitə şəbəkələri, sosial media platformaları, digər elektron rabitə vasitələri, internet və mobil telekommunikasiya tətbiqləri, habelə digər texnologiyalara əsaslanan platformalar;*[14]

*2.0.19. **lotereya terminalları** – özünəxidmət terminalları, avtomatlaşdırılmış köşklər və lotereya oynanılmasına və (və ya) satışına imkan yaradan istənilən digər texnoloji vasitələr;*

*2.0.20. **lotereya biletlərinin satıcısı** – lotereya təşkilatçısı ilə bağlanmış müqaviləyə əsasən fəaliyyət göstərən və lotereya biletlərinin satışını bilavasitə, lotereya terminalları və ya virtul mühit vasitəsilə həyata keçirən şəxs.*

### M a d d ə 3 . **Lotereyaların təşkili və keçirilməsi sahəsində münasibətlərin *dövlət* ~~dövlət~~ tənzimlənməsi**[15]

3.1. Azərbaycan Respublikasında lotereyalar əhalinin sosial-maddi rifahının yüksəldilməsi və dövlət əhəmiyyətli layihələrin maliyyələşdirilməsi, dövlət büdcəsinə daxilolmaların artırılması, malların (işlərin, xidmətlərin) satışını stimullaşdırmaq

məqsədilə keçirilir.

3.2. Lotereyaların təşkili və keçirilməsi sahəsində münasibətlərin *dövlət* tənzimlənməsi *səlahiyyətli orqan* tərəfindən aşağıdakı vasitələrlə təmin edilir:[16]

3.2.1.lotereyaların təşkilində və keçirilməsində iştirak edən hüquqi və fiziki şəxslər üçün icrası məcburi olan normativ *hüquqi* aktların qəbul edilməsi;[17]

~~3.2.2.lotereyaların təsnifatlaşdırılması;~~[18]

3.2.3.lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) qeydiyyatı qaydalarının müəyyən edilməsi və onların qeydiyyatının aparılması;

3.2.4. *lotereyaların təşkili və keçirilməsi ilə bağlı nəzarətin həyata keçirilməsi qaydasının müəyyən edilməsi;*[19]

3.2.5.lotereyaların təşkili və keçirilməsi ilə əlaqədar açıqlanmalı olan məlumatların və onların açıqlanması qaydalarının müəyyən edilməsi;

3.2.6.lotereya iştirakçılarının hüquqlarının təmin edilməsi*, o cümlədən bu məqsədlə lotereyalardan əldə edilən uduşların iştirakçılara ödənilməsinə nəzarət edilməsi;*[20]

3.2.7.lotereya təşkilatçısı tərəfindən lotereyalar haqqında qanunvericiliyin tələbləri pozulduqda lotereya təşkilatçısına *göstəriş verilməsi* və ya lotereyanın keçirilməsinin dayandırılması;[21]

3.2.8.lotereyanın keçirilməsinə xitam verilməsi haqqında iddia ilə məhkəməyə müraciət edilməsi;

3.2.9.*məqsədli lotereyaların* keçirilməsindən əldə olunmuş vəsaitin məqsədyönlü istifadəsinə nəzarət edilməsi;[22]

3.2.10. lotereyalar haqqında qanunvericiliklə müəyyən olunmuş digər funksiyalar.

*3.3. Azərbaycan Respublikasında lotereyalar (stimullaşdırıcı lotereyalar istisna olmaqla) yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir və keçirilir.*[23]

*3.4. "Lotereya" sözünün işlədildiyi mətndən bu sözün lotereya fəaliyyətinə aid edilmədiyi tam aydın olduğu hallar istisna olmaqla, bu Qanunun 3.3-cü maddəsində nəzərdə tutulan lotereya təşkilatçısından başqa digər hüquqi şəxslərin adında "lotereya" sözünün ("lotereya" sözü olan söz birləşməsinin) istifadəsi qadağandır.*[24]

### M a d d ə 4 . **Lotereyanın şərtləri**

4.1. Lotereyanın şərtlərində aşağıdakılar göstərilir:

4.1.1.lotereya təşkilatçısı haqqında məlumat;

4.1.2.lotereyanın adı və ~~keçirilmə~~ forması;[25]

4.1.3.lotereyanın keçirilməsi müddəti;

4.1.4.lotereyanın keçirildiyi ərazi;

4.1.5. *lotereya biletinin sənəd, ona bərabər tutulan məlumat daşıyıcıları və ya elektron kod formasında olması və onların əldə edilməsi qaydaları haqqında məlumat;* [26]

4.1.6.lotereyanın uduş fondu haqqında *(əgər tətbiq olunursa);*[27]

*4.1.7. lotereyanın oynanılması və uduşun müəyyən edilməsi qaydaları haqqında məlumat;*[28]

4.1.8.uduşlu lotereya biletlərinin ~~(onlara bərabər tutulan digər məlumat daşıyıcılarının)~~ lotereya təşkilatçısı tərəfindən qəbulu *(elektron biletlər üzrə təsdiqi)* və

uduşların verilməsi (ödənilməsi) müddəti və qaydası haqqında məlumat.[29]

*4.1.9. bu Qanunun 4.3-cü maddəsi ilə müəyyən edilmiş hallarda qeyri-pul uduşlarının pul dəyəri haqqında məlumat;*[30]

*4.1.10. lotereya təşkilatçısı tərəfindən uduş fonduna əlavə vəsaitin qoyulmasının və həmin vəsaitin udulmamış hissəsinin geri götürülməsinin mümkün olub-olmaması haqqında məlumat.*

*4.1-1. Lotereya təşkilatçısı qanunla qadağan edilməyən digər məlumatları lotereyanın şərtlərinə daxil edə bilər.*

4.2. Tirajlı lotereyanın (stimullaşdırıcı lotereyalar istisna olmaqla) şərtlərində lotereyanın uduş fondunun məbləğinin satılmış lotereya biletlərinin miqdarından asılı olaraq müəyyən edilməsi və ya uduş fondunun təsbit edilmiş məbləği göstərilməlidir. Uduş fondunun məbləği satılmış lotereya biletlərinin miqdarından asılı olaraq müəyyənləşdirildikdə, uduş fondunun satılmış lotereya biletlərinin ümumi məbləğinə faiz *nisbətinin aşağı həddi* göstərilməlidir. Lotereyanın şərtlərində lotereyanın uduş fondunun ümumi məbləği göstərildiyi halda, hər uduşun adı, miqdarı və dəyəri (qiyməti) göstərilməlidir.[31]

4.3. Lotereyanın şərtlərində nəzərdə tutulduğu halda lotereya iştirakçısının tələbi ilə qeyri-pul uduşlarının əvəzinə onların pul ekvivalentinin ödənilməsinə yol verilir.

4.4. Tirajlı lotereyanın təşkilatçısı uduş fonduna daxil edilmiş malların, stimullaşdırıcı lotereyanın təşkilatçısı isə lotereya obyektinin keyfiyyətinə görə cavabdehdir.

4.5. Stimullaşdırıcı lotereyada iştirak etmək üçün lotereya obyektinin qiymətindən əlavə haqqın alınmasına yol verilmir. *Stimullaşdırıcı lotereyalar yalnız tirajlı formada keçirilir.*[32]

4.6. Məqsədli lotereyanın şərtlərində lotereyanın keçirilməsi barədə *səlahiyyətli orqanın* qərarı və maliyyələşdirilən dövlət əhəmiyyətli layihə haqqında məlumat verilməlidir. ~~Lotereya təşkilatçısı qanunvericiliyə zidd olmayan digər məlumatları lotereyanın şərtlərinə daxil edə bilər.~~[33]

4.7. Lotereya təşkilatçısı lotereyanın şərtlərini *media* ilə *lotereya biletlərinin satışına başlamazdan əvvəl* elan etməlidir.[34]

4.8. Lotereyanın şərtlərinə əlavə və dəyişikliklərin edilməsinə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada *səlahiyyətli orqanın* icazəsi ilə yol verilir.[35]

4.9. *Lotereyanın şərtlərində dəyişiklik edilməsi üçün lotereya təşkilatçısı dəyişilmiş şərtlərlə keçiriləcək ilk oyun tarixinə azı 7 (yeddi) iş günü qalmış səlahiyyətli orqana müraciət edir. Lotereyanın şərtlərində dəyişiklik edilməsi ilə bağlı müraciət səlahiyyətli orqana daxil olduğu gün qeydiyyata alınır və həmin tarixdən etibarən 3 (üç) iş günündən gec olmayaraq, səlahiyyətli orqan dəyişikliklər edilməsinə icazənin verilməsi və ya bundan imtina edilməsi barədə qərar qəbul edir. Lotereyanın şərtlərində dəyişiklik edilməsinə razılıq verilməsi və ya bundan imtina edilməsi barədə qərar lotereya təşkilatçısına təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.*[36]

4.10. Lotereyanın şərtlərinə lotereya iştirakçılarının hüquqlarını məhdudlaşdıran, lotereyanın formasının dəyişilməsinə təsir göstərən, uduş fondunun tərkibini dəyişən və ya onun həcmini azaldan əlavə və dəyişikliklər edilə bilməz.

4.11. Lotereya təşkilatçısı lotereyanın şərtlərinə edilmiş əlavələr və (və ya) dəyişikliklər haqqında məlumatı *lotereyanın* oynanılması tarixinə azı *3 (üç)* iş günü

qalmış *media* ilə elan etməlidir.[37]

M a d d ə 5 . **Tiraj komissiyası**

5.1.Tiraj komissiyası lotereya təşkilatçısı tərəfindən yaradılır *(elektron və virtual lotereyalar istisna olmaqla)* və tirajlı lotereyanın uduş fondunun qanunvericiliyə uyğun oynanılmasına nəzarəti həyata keçirir.[38]

5.2.Tiraj komissiyası üzvlərinin sayı 5 (beş) nəfərdən az olmamaq şərti ilə tək sayda yaradılır. Lotereya təşkilatçısının vəzifəli şəxsləri, onların ailə üzvləri (ər, arvad, valideynlər, övladlar və övladlığa götürülmüş şəxslər, onların ərləri və arvadları, bacılar, qardaşlar, bacı və qardaş övladları, ər-arvadların bacıları, qardaşları və valideynləri, bacıların ərləri və qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, qəyyumlar və qəyyumluğa götürülənlər), həmçinin stimullaşdırıcı lotereya obyektinin satıcısı (o, stimullaşdırıcı lotereyanın təşkilatçısı olduğu halda) tiraj komissiyasının üzvü ola bilməz.

*5.2-1. Lotereya təşkilatçısı tiraj komissiyasına üzv ola biləcək şəxslərin siyahısını və onların vətəndaş qüsursuzluğunu təsdiq edən sənədləri tiraj komissiyasının tərkibi formalaşana qədər səlahiyyətli orqanla razılaşdırmalıdır. Səlahiyyətli orqan siyahı təqdim edildikdən sonra 5 (beş) iş günü müddətində siyahıda olan şəxslərdən hər hansı biri barədə səhv və ya təhrif olunmuş məlumatın təqdim edildiyini aşkar etdikdə, lotereya təşkilatçısına məlumat verir və həmin şəxsin siyahıdan çıxarılmasını tələb edir. Bu müddət ərzində səlahiyyətli orqan lotereya təşkilatçısına təqdim olunan məlumatların səhv olması və ya təhrif olunması barədə məlumat verməzsə, siyahı səlahiyyətli orqanla razılaşdırılmış hesab olunur. Siyahı səlahiyyətli orqanla razılaşdırıldıqdan sonra siyahıya daxil edilmiş şəxslərdən hər hansı birinin vətəndaş qüsursuzluğunu itirdiyi məlum olduqda, səlahiyyətli orqan həmin şəxsin siyahıdan çıxarılmasını tələb edir. Lotereya təşkilatçısı siyahıya daxil edilmiş şəxslərdən hər hansı birinin vətəndaş qüsursuzluğunu itirdiyini özü müəyyən etdikdə, həmin şəxsi tiraj komissiyasına üzv ola biləcək şəxslərin siyahısından çıxarır və bu barədə səlahiyyətli orqana məlumat verir.* [39]

*Səlahiyyətli orqanla razılaşdırılmış siyahıda olan şəxslər səlahiyyətli orqanla təkrar razılaşdırılmadan tiraj komissiyasının tərkibinə daxil edilir. Lotereya təşkilatçısı bu maddə ilə müəyyən edilmiş qaydada səlahiyyətli orqanla razılaşdırılmaqla siyahıda dəyişiklik edə bilər.*

~~5.3.Lotereya təşkilatçısı tiraj komissiyasının ən azı bir üzvünü kütləvi informasiya vasitələrinin və ya ictimai təşkilatların nümayəndələrindən təyin edir.~~[40]

5.4. *Lotereya təşkilatçısı uduş fondunun oynanılmasına azı 1 (bir) iş günü qalmış tiraj komissiyasının üzvləri və həmin üzvləri əvəz edə biləcək daha 5 (beş) şəxs haqqında məlumatı özündə əks etdirən siyahını səlahiyyətli orqana təqdim etməlidir. Səlahiyyətli orqan bu maddənin birinci cümləsində göstərilən məlumatı aldıqdan sonra tiraj komissiyasının bu Qanunun tələbləri pozulmaqla yaradıldığını müəyyən etdikdə, tiraj komissiyasının tərkibində və (və ya) əvəzləyici şəxslərin siyahısında dəyişiklik edilməsi barədə lotereya təşkilatçısına dərhal, lakin hər bir halda uduş fondunun oynanılmasına azı 12 (on iki) saat qalmış icrası məcburi olan göstəriş verir. Səlahiyyətli orqana barəsində məlumat təqdim edilmiş siyahı üzrə tiraj komissiyasının üzvlərindən hər hansı biri (bir neçəsi) üzrlü və ya üzrsüz səbəbdən tiraj komissiyasında iştirak edə bilmədikdə, lotereya təşkilatçısı bu barədə səlahiyyətli orqanı məlumatlandırmaqla onu (onları) digər şəxslə (şəxslərlə) əvəz edə bilər.*[41]

5.5.Tiraj komissiyasının sədri tiraj komissiyasının üzvləri tərəfindən adi səs çoxluğu ilə seçilir.

5.6.Tiraj komissiyasının qərarları adi səs çoxluğu ilə qəbul edilir. Qərar qəbul edilərkən tiraj komissiyasının üzvü bitərəf qala bilməz.

5.7.Tirajlı lotereyanın uduş fondunun oynanılmasının nəticələri tiraj komissiyasının üzvləri tərəfindən imzalanan aktla təsdiq olunur. Uduş fondunun oynanılması zamanı lotereyanın şərtlərinin pozulması aşkar edildikdə bu, uduş fondunun oynanılmasının nəticələri haqqında aktda qeyd edilir. Tiraj komissiyası aşkar olunmuş pozuntular barədə 3 (üç) iş günü ərzində *səlahiyyətli orqana* və lotereya təşkilatçısına məlumat verir.[42]

*Səlahiyyətli orqan uduş fondunun oynanılması zamanı lotereyanın şərtlərinin pozulması barədə tiraj komissiyasından məlumat aldığı tarixdən etibarən 30 (otuz) gün müddətində müvafiq qərar qəbul etməli və qərarın surətini lotereya təşkilatçısına təqdim etməlidir.*

5.8. Bu Qanunun 5.7-ci maddəsində göstərilən məlumatı aldıqda lotereya təşkilatçısı *səlahiyyətli orqan* tərəfindən müvafiq qərar qəbul edilənədək uduşların verilməsini (ödənilməsini) dayandırır.[43]

M a d d ə 6 . **Lotereyanın uduş fondu**

*6.1. Lotereyanın uduş fondu lotereya şərtlərində müəyyən olunur və həmin fondun oynanılmasına qədər formalaşdırılır. Lotereya təşkilatçısı uduş fonduna öz vəsaiti hesabına əlavələr edə bilər.*[44]

6.2.Uduş fondu *(lotereya təşkilatçısının qoyduğu və udulmamış əlavə vəsait istisna olmaqla)* yalnız lotereya iştirakçıları qarşısındakı öhdəliklərin yerinə yetirilməsi məqsədlərinə istifadə oluna bilər.[45]

6.3.Tirajlı lotereyanın (stimullaşdırıcı lotereya istisna olmaqla) uduş fondunun minimum həcmi, lotereyanın şərtlərindən asılı olaraq, müvafiq tiraj üzrə buraxılmış, yaxud satılmış lotereya biletlərinin ümumi məbləğinin 50%-dən az *ola bilməz və bu zaman lotereya təşkilatçısı tərəfindən qoyulan əlavə vəsait nəzərə alınmır. Elektron lotereyaların uduş fondunun minimum həcmi müvafiq tiraj üzrə satılmış lotereya biletlərinin ümumi məbləğinin 50%-dən az və bu zaman lotereya təşkilatçısı tərəfindən qoyulan əlavə vəsait nəzərə alınmır.*[46]

6.4.Uduş fondu satılmış lotereya biletlərinin məbləğindən asılı olaraq müəyyən edildikdə, bir tirajın uduş fondunun oynanılmamış hissəsi lotereyanın şərtlərində göstərildiyi qaydada növbəti tirajda oynanıla bilər.

*6.4-1. Bir tirajın uduş fondunun oynanılması nəticəsində həmin uduş fondunun udulmamış hissəsi lotereyanın şərtlərində göstərildiyi qaydada növbəti tirajda oynanılır. Lotereya təşkilatçısının uduş fonduna qoyduğu əlavə vəsaitin udulmamış hissəsi isə lotereya təşkilatçısı tərəfindən geri götürülə bilər.*[47]

6.5.Ani lotereyanın (stimullaşdırıcı lotereya istisna olmaqla) uduş fondunun həcmi buraxılmış lotereya biletlərinin ümumi məbləğinin 50%-dən az ~~və 80%-dən çox~~ olmamalıdır.[48]

6.6.Lotereya təşkilatçısı uduşlu lotereya biletlərini lotereyanın şərtlərində göstərilmiş qəbul müddəti ərzində lotereya iştirakçılarının ilk tələbi ilə qəbul edir.

6.7. Tirajlı lotereyada uduşlu lotereya biletinin lotereya təşkilatçısı tərəfindən qəbulu müddəti həmin tiraj üzrə uduş fondu oynanıldığı tarixdən etibarən 7 (yeddi) iş günündən gec olmayaraq başlamalı və 90 (doxsan) iş günündən az olmamalıdır.

6.8. Ani lotereyada uduşlu lotereya biletinin lotereya təşkilatçısı tərəfindən qəbulu müddəti lotereyanın keçirilməyə başlandığı tarixdən başlamalı və lotereyanın keçirilməsi başa çatdığı tarixdən ən azı 90 (doxsan) iş günü davam etməlidir. Ani lotereyanın başa çatması barədə məlumatın lotereya təşkilatçısı tərəfindən elan edildiyi tarix ani lotereyanın keçirilməsinin başa çatdığı tarix hesab olunur.

6.9. Uduş lotereya təşkilatçısı tərəfindən uduşlu lotereya bileti qəbul edildiyi tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq verilməlidir (ödənilməlidir).

6.10. *Bu Qanunla müəyyən edilmiş ümumi məbləği üç min manatdan artıq olan uduşlar və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşu) ilə bağlı hesablaşmalar üzrə ödənişlər "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız nağdsız qaydada həyata keçirilir.*[49]

M a d d ə 7 . **Lotereya biletlərinə dair tələblər**

7.1. Lotereya biletinin üzərində ~~(stimullaşdırıcı lotereyalarda istifadə olunan lotereya biletləri istisna olmaqla)~~ aşağıdakı məlumatlar əks olunmalıdır:[50]

7.1.1. lotereya təşkilatçısının adı *və ya loqosu;*[51]

7.1.2. lotereyanın adı və ~~keçirilmə~~ forması;[52]

7.1.3. lotereya biletinin nömrəsi və (və ya) seriyası;

7.1.4. *lotereyanın keçirilməsi və ya oynanılması* tarixi (ani lotereya istisna olmaqla);[53]

7.1.5. lotereya biletinin və ya bir variantın qiyməti *(stimullaşdırıcı lotereyalarda istifadə olunan lotereya biletləri istisna olmaqla);*[54]

*7.1.5-1. bu Qanunun 7.1-1-ci maddəsində qeyd olunmuş məlumatların əldə oluna biləcəyi mənbə;*[55]

~~7.1.6. lotereyanın uduş fondu haqqında məlumat;~~[56]

~~7.1.7. lotereyanın uduş fondunun oynanılması şərtləri haqqında məlumat;~~

~~7.1.8. uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərinin lotereya təşkilatçısı tərəfindən qəbul müddəti və uduşların verilməsi (ödənilməsi) qaydaları haqqında məlumat;~~

~~7.1.9. lotereya biletlərini çap edən müəssisə haqqında məlumat *(elektron lotereyalarda istifadə olunan lotereya biletləri istisna olmaqla);*~~[57]

~~7.1.10. lotereyanın qeydiyyata alınması haqqında məlumat.~~

*7.1-1. Bu Qanunun 7.1-ci maddəsində sadalanan məlumata əlavə olaraq, lotereya haqqında aşağıdakı məlumatlar lotereya təşkilatçısının internet səhifəsində əks olunmalıdır:*[58]

*7.1-1.1. lotereyanın uduş fondu haqqında məlumat (əgər tətbiq olunursa);*

*7.1-1.2. lotereyanın uduş fondunun oynanılması və ya uduşun müəyyən edilməsi şərtləri haqqında məlumat;*

*7.1-1.3. uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərinin lotereya təşkilatçısı tərəfindən qəbul müddəti və uduşların verilməsi (ödənilməsi) qaydaları haqqında məlumat;*

*7.1-1.4. lotereyanın qeydiyyata alınması haqqında məlumat.*

~~7.2.Lotereya biletlərinin hazırlanmasına dair digər tələblər qanunvericiliklə nəzərdə tutulmuş qaydada *maliyyə bazarlarına nəzarət orqanı* tərəfindən müəyyən edilir.~~[59]

~~7.3.Lotereya biletləri bütün növ qiymətli kağız blanklarının hazırlanması və satışı fəaliyyətinə xüsusi razılıq (lisenziya) almış müəssisələr tərəfindən hazırlanmalıdır.~~

~~7.4.Digər formada məlumat daşıyıcıları olan lotereya biletlərinin istifadə qaydaları və onların rekvizitləri *maliyyə bazarlarına nəzarət orqanı* tərəfindən müəyyən edilir.~~

7.5.Tirajlı lotereyanın uduş fondunun oynanılmasında yalnız satılmış lotereya biletləri iştirak edir.

7.6.Lotereya təşkilatçısı satılmamış lotereya biletlərinin (stimullaşdırıcı lotereyada istifadə olunan lotereya biletləri istisna olunmaqla) satıcıdan qəbulunu uduş fondunun *oynanılmasınadək* başa çatdırmalıdır. *Uduş fondunun oynanılmasından sonra təhvil verilməmiş lotereya biletləri satılmış hesab olunur.*[60]

7.7. *Uduşlu lotereya biletləri barədə məlumat lotereya təşkilatçısının istifadə etdiyi informasiya sistemində 3 (üç) il ərzində saxlanılır.*[61]

7.8.Satılmamış və geri qaytarılmış lotereya biletləri lotereya təşkilatçısının yaratdığı müvafiq komissiya tərəfindən məhv edilir.

7.9.*Satılmamış* lotereya biletlərinin satıcılardan geri alınması və məhv edilməsi qaydaları *səlahiyyətli orqan* tərəfindən müəyyən olunur.[62]

7.10. *Qanunun 7.1-ci, 7.6-cı, 7.8-ci və 7.9-cu maddələrinin tələbləri yalnız sənəd formasında olan lotereya biletlərinə tətbiq olunur. Digər məlumat daşıyıcıları və ya elektron kod formasında olan lotereya biletlərinin istifadə qaydaları və onların rekvizitləri səlahiyyətli orqan tərəfindən müəyyən edilir.*[63]

M a d d ə 8 . **Lotereyaların qeydiyyatı**

8.1.Lotereya iştirakçılarının hüquqlarının müdafiəsi, lotereyaların təşkilinə və keçirilməsinə *nəzarətin, habelə məqsədli lotereyanın keçirilməsindən əldə olunmuş vəsaitin məqsədyönlü istifadəsinə dövlət nəzarətinin* təmin edilməsi məqsədilə *səlahiyyətli orqan* Azərbaycan Respublikasında keçirilən lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) qeydiyyatını həyata keçirir.[64]

8.2.Lotereyanın (stimullaşdırıcı lotereya istisna olmaqla) qeydiyyata alınması üçün lotereya təşkilatçısı lotereyanın *ilk oyununun keçirilməsinə azı 10 (on) iş günü qalmış səlahiyyətli orqana* aşağıdakı sənədləri *kağız daşıyıcıda və ya elektron formada* təqdim etməlidir:[65]

8.2.1.lotereyanın qeydiyyata alınması üçün ərizə. Ərizədə lotereya təşkilatçısının adı, olduğu yer. lotereyanın adi və ~~keçirilməsi~~ forması göstərilməlidir;[66]

8.2.2.lotereyanın şərtləri;

8.2.3.lotereyada istifadə olunacaq lotereya biletinin *(elektron kod formasında olan biletlər istisna olmaqla)* nümunəsi;[67]

8.2.4. *"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla hüquqi şəxslərin dövlət reyestrindən çıxarış;*[68]

~~8.2.5.lotereya təşkilatçısının vergi orqanları tərəfindən uçota alınması haqqında sənədin surəti;~~

~~*8.2.6. lotereya təşkilatçısının təsisçiləri haqqında məlumat;*~~[69]

*8.2.6.1. təsisçi fiziki şəxs olduqda, onun şəxsiyyətini təsdiq edən sənədin surəti və imzası notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilməklə vətəndaş qüsursuzluğuna dair ərizəsi;*

*8.2.6.2. təsisçi hüquqi şəxs olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarış;*

*8.2.7. son maliyyə ili üzrə, bir ildən az müddətdə fəaliyyət göstərdikdə isə bütün fəaliyyət dövrü üzrə təsdiq edilmiş maliyyə hesabatları (lotereyanın ilk dəfə qeydiyyata alınması halı istisna olmaqla).*

8.3. Bu Qanunun *8.2.4-8.2.6-cı* maddələrində *(8.2.6-cı maddədə göstərilən məlumatlarda dəyişikliklər baş verdiyi hallar istisna olmaqla)* göstərilən sənədlərin surəti lotereya təşkilatçısı tərəfindən keçirilən sonrakı lotereyaların qeydiyyata alınması üçün tələb olunmur.[70]

8.4. Stimullaşdırıcı lotereyanın təşkilatçısı lotereyanın keçirilməsinin başlanmasına azı 20 (iyirmi) iş günü qalmış *səlahiyyətli orqana* aşağıdakı sənədləri *kağız daşıyıcıda və ya elektron formada* təqdim etməlidir:[71]

8.4.1.stimullaşdırıcı lotereyanı keçirmək niyyətində olduğu barədə bildiriş. Bildirişdə lotereya təşkilatçısının adı, olduğu yer, lotereyanın adı və növü göstərilməlidir;

8.4.2.stimullaşdırıcı lotereyanın şərtləri;

8.4.3.stimullaşdırıcı lotereyada istifadə olunacaq lotereya biletinin (*elektron kod formasında olan lotereya biletləri istisna olmaqla*) nümunəsi;[72]

8.4.4.stimullaşdırıcı lotereya təşkilatçısının dövlət qeydiyyatı haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;

8.4.5.stimullaşdırıcı lotereya təşkilatçısının vergi orqanları tərəfindən uçota alınması haqqında sənədin surəti;

8.4.6.stimullaşdırıcı lotereya tapşırıq müqaviləsinə əsasən keçirildiyi halda həmin müqavilənin lotereyanın keçirilməsini tapşıran şəxs tərəfindən təsdiq edilmiş surəti.

*8.4-1. Bu Qanunun 8.4.4-cü və 8.4.5-ci maddələrində göstərilən sənədlərin surətinin (bu sənədlərdə baş vermiş dəyişikliklərin olması halları istisna olmaqla) eyni lotereya təşkilatçısı tərəfindən sonrakı stimullaşdırıcı lotereyaların keçirilməsi məqsədilə edilən müraciətlər zamanı təqdim edilməsi tələb olunmur.*[73]

*8.4-2. Bu Qanunun 8.4-cü maddəsində nəzərdə tutulmuş sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar lotereya təşkilatçısından tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi lotereya təşkilatçısının razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya lotereya təşkilatçısı tərəfindən təmin edilir.*[74]

8.5.Lotereya təşkilatçısı *səlahiyyətli orqana* təqdim etdiyi sənədlərdə olan məlumatların tamlığına və düzgünlüyünə görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

8.6. *Səlahiyyətli orqan lotereya şərtlərində göstərilən müddəaların aydınlaşdırılmasını və ya onlara konkretləşdirici müddəaların əlavə edilməsini, habelə ərizədə (bildirişdə) və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və imtinaya (qadağaya) səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, onlar təqdim edildiyi tarixdən etibarən 7 (yeddi) iş günü*

*müddətində lotereya təşkilatçısından tələb edə bilər. Bu halda lotereyanın qeydiyyatı barədə qərarın qəbul edilməsi müddətinin axımı dayandırılır və dayandırılmış müddət qərarın qəbul edilməsi müddətinə daxil edilmir. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müddətin axımı bərpa olunur.*[75]

8.7.Bu Qanunun 8.2-ci maddəsində göstərilən sənədlər *səlahiyyətli orqana* təqdim edildiyi tarixdən etibarən *7 (yeddi)* iş günündən gec olmayaraq o, lotereyanın qeydiyyata alınması və ya bundan imtina barədə qərar qəbul edib, bu barədə lotereya təşkilatçısına məlumat təqdim etməlidir.[76]

8.8.Bu Qanunun 8.4-cü maddəsində göstərilən sənədlər *səlahiyyətli orqana* təqdim edildiyi tarixdən 15 (on beş) iş günündən gec olmayaraq o, stimullaşdırıcı lotereyanın keçirilməsini qadağan edə bilər. Bu müddət ərzində stimullaşdırıcı lotereyanın keçirilməsi qadağan olunmadıqda, lotereya təşkilatçısı lotereyanı keçirmək hüququnu əldə edir.

8.9. *Səlahiyyətli orqan* aşağıdakı əsaslarla lotereyanın qeydiyyata alınmasından imtina edə bilər və ya stimullaşdırıcı lotereyanın keçirilməsini qadağan edə bilər:[77]

8.9.1.bu Qanunun 8.2-ci və 8.4-cü maddələrində *(bu Qanunun 8.6-cı maddəsi ilə müəyyən edilmiş hal nəzərə alınmaqla)* göstərilən sənədlər tam şəkildə təqdim edilmədikdə *(bu Qanunun 8.4-2-ci maddəsinin tələbləri nəzərə alınmaqla)*;[78]

8.9.2. *ərizəyə (bildirişə) və ona əlavə olunmuş sənədlərə bu Qanunun tələblərinə cavab verməyən və ya təhrif olunmuş məlumatlar daxil edildikdə;*[79]

8.9.3.*lotereyanın təşkilatçısı səlahiyyətli orqana onunla bağlı qəbul etdiyi bu Qanunla müəyyən olunmuş icrası məcburi göstərişləri icra etmədən,* ~~onun tərəfindən keçirilən lotereyanın dayandırılması zamanı~~ yeni lotereyanın keçirilməsi ilə bağlı müraciət etdikdə;[80]

8.9.4. lotereya təşkilatçısının stimullaşdırıcı lotereyanı keçirməsinə məhkəmə tərəfindən xitam verildiyi tarixdən 6 (altı) aydan az vaxt keçdikdə.

8.10. *Lotereya təşkilatçısının lotereyanın şərtlərində dəyişikliklər edilməsi və ya qeydiyyata alınmasından imtina edilməsi barədə qərarından, habelə keçirilməsinin qadağan edilməsindən inzibati və məhkəmə qaydasında şikayət etmək hüququ vardır.*[81]

8.11.Keçirilməsi qadağan edilmiş *və ya keçirilmə hüququ əldə edilməmiş* stimullaşdırıcı lotereyaların və qeydiyyata alınmamış digər lotereyaların keçirilməsinə ~~*və reklamına*~~ yol verilmir.[82]

***Maddə 8-1. Lotereyaların reklamı***[83]

*8-1.1. Lotereyaların reklamının sifarişçisi qismində lotereya təşkilatçısı çıxış edir. Reklam lotereya biletlərinin ~~(onlara bərabər tutulan digər məlumat daşıyıcılarının)~~ üzərində yerləşdirilə bilər.* [84]

*8-1.2. Lotereyada udan şəxsin yazılı razılığı olmadan, adı reklamda açıqlana bilməz.*

*8-1.3. Lotereyaların reklamında aşağıdakılar qadağandır:*

*8-1.3.1. yetkinlik yaşına çatmayanlara müraciət olunması;*

*8-1.3.2. lotereyalarda iştirakın cəmiyyətdə nüfuz qazanmaq vasitəsi olması fikrinin yaradılması;*

*8-1.3.3. lotereyalarda qazanc əldə edilməsinə zəmanət verilməsi;*

*8-1.3.4. lotereyalarda iştirak etməyənlərin nüfuzdan salınması.*

*8-1.4. Lotereyaların reklamı telekommunikasiya, nəqliyyat vasitələrində, mediada, açıq məkanda olan reklam daşıyıcılarında yerləşdirilə bilər. Lotereyaların açıq məkanda reklamı uşaq və təhsil müəssisələrindən azı 100 metr kənarda olan reklam daşıyıcılarında yerləşdirilir.*[85]

*8-1.5. Stimullaşdırıcı lotereyanın reklamında həmin lotereyanın keçirilməsinin şərtləri, vaxtı və müddəti, uduş fondu, uduşların verildiyi yer və vaxt, alınması şərtləri, onların təşkilatçısı barədə məlumatlar əks olunmalı yaxud səsləndirilməlidir.*

*8-1.6. Stimullaşdırıcı lotereya biletlərinin sahiblərinə uduş qismində tündlüyü 5 faizdən yuxarı olan alkoqollu içkilər, tütün və tütün məmulatları təklif oluna bilməz.*

*8-1.7. Tündlüyü 5 faizdən yuxarı olan alkoqollu içkilərin, tütün və tütün məmulatlarının satışını stimullaşdırmaq məqsədi ilə lotereyaların keçirilməsi qadağandır.*

*8-1.8. Keçirilməsi qadağan edilmiş və ya keçirilmə hüququ əldə edilməmiş stimullaşdırıcı lotereyaların və qeydiyyata alınmamış digər lotereyaların reklamına yol verilmir.* [86]

### *Maddə 8-2.* ***Elektron və virtual lotereyaların təşkili və keçirilməsi***[87]

*8-2.1. Lotereya təşkilatçısı elektron və virtual lotereyaların təşkilini və keçirilməsini "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alınmış fərdi məlumatların informasiya sistemləri vasitəsilə həyata keçirir.* [88]

*8-2.2. Bu Qanunun 8-2.1-ci maddəsində nəzərdə tutulan fərdi məlumatların informasiya sistemlərində əks olunmalı məlumatların siyahısı səlahiyyətli orqan tərəfindən müəyyən edilir.* [89]

*8-2.3. Virtual lotereyanın təşkili və keçirilməsi qaydası səlahiyyətli orqan tərəfindən müəyyən edilir.*[90]

### *Maddə 9.* ***Lotereyanın dayandırılması və onun keçirilməsinə xitam verilməsi***[91]

*9.1. Bu Qanunun 9.2-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, bu Qanunun və bu Qanuna uyğun olaraq qəbul edilmiş digər normativ hüquqi aktların tələblərinin və ya lotereyanın şərtlərinin lotereya təşkilatçısı tərəfindən pozulması halları aşkar edildikdə, səlahiyyətli orqan həmin pozuntuların aradan qaldırılmasına dair ona yazılı bildiriş göndərir. Lotereya təşkilatçısı bildirişi aldığı tarixdən 20 (iyirmi) iş günü müddətində aşkar edilmiş pozuntuları aradan qaldırmalı və bu barədə səlahiyyətli orqana məlumat verməlidir.*

*9.2. Səlahiyyətli orqan aşağıdakı hallarda lotereyanın keçirilməsini dayandırır:*

*9.2.1. bu Qanunun 9.1-ci maddəsində nəzərdə tutulmuş bildirişin icrası məhkəmə və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dayandırıldığı və ya bildiriş ləğv edildiyi hallar istisna olmaqla, lotereya təşkilatçısı həmin göstərişi müəyyən edilmiş müddətdə icra etmədikdə;*

*9.2.2. lotereyanın təşkili və keçirilməsi zamanı törətmiş olduğu dələduzluq, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə görə lotereya təşkilatçısının vəzifəli şəxsinə və (və ya) tiraj komissiyasının üzvünə qarşı cinayət işi başlandıqda;*

*9.2.3. lotereyanın təşkilinə və ya keçirilməsinə qanunsuz müdaxilə (uduş şansının dəyişdirilməsinə səbəb olan müdaxilə) aşkar edildikdə;*

*9.2.4. lotereya şərtlərinin əhəmiyyətli dərəcədə pozulması halları aşkar edildikdə.*

*Qeyd: Bu Qanunun 9.2.4-cü maddəsində "əhəmiyyətli dərəcədə pozulma" dedikdə 1000 və ya daha çox lotereya iştirakçısının hüquqlarının pozulması və ya pozuntu (pozuntular) nəticəsində iştirakçılara dəyən zərərin ümumi məbləğinin 100 000 (yüz min) manat və daha artıq təşkil etməsi başa düşülür.*

*9.3. Səlahiyyətli orqan bu Qanunun 9.5-ci maddəsi ilə müəyyən edilmiş müddət ərzində lotereyanın dayandırılması üçün əsas olan pozuntuların aradan qaldırılması və zərərin ödənilməsi (olduğu halda) barədə lotereya təşkilatçısından məlumat aldıqda, 5 (beş) iş günündən gec olmayaraq, lotereyanın dayandırılması barədə qərarı ləğv edir və lotereyanın bərpa edilməsi barədə lotereya təşkilatçısına yazılı bildiriş göndərir.*

*9.4. Bu Qanunun 9.2.2-ci maddəsi üzrə barəsində cinayət işi başlanılmış lotereya təşkilatçısının vəzifəli şəxsi ilə əmək münasibətlərinə xitam verildikdə və ya həmin şəxs vəzifədən kənarlaşdırıldıqda və ya tiraj komissiyasının üzvü komissiyadan kənarlaşdırıldıqda, habelə bu Qanunun 9.2.4-cü maddəsi üzrə əhəmiyyətli dərəcədə vurulmuş zərər ödənildikdə, lotereyanın dayandırılması üçün əsas olan pozuntular aradan qaldırılmış hesab olunur.*

*9.5. Lotereya təşkilatçısı lotereyanın dayandırılması haqqında səlahiyyətli orqanın qərarını aldığı tarixdən 30 (otuz) iş günü müddətində bu Qanunun 9.2-ci maddəsində nəzərdə tutulmuş lotereyanın dayandırılmasına səbəb olan halları aradan qaldırmadıqda və ya bu barədə məlumatı təqdim etmədikdə, səlahiyyətli orqan lotereyanın keçirilməsinə xitam verilməsi barədə məhkəmədə vəsatət qaldırır.*

*9.6. Stimullaşdırıcı lotereyanın təşkilatçısı stimullaşdırıcı lotereyanın keçirilməsinin dayandırılması və ya ona xitam verilməsi haqqında qərarın qəbul edilməsi barədə bildiriş aldıqda, bu barədə məlumatı media ilə elan etməlidir. Bu zaman stimullaşdırıcı lotereyada iştirak etmək üçün təkliflərin edilməsi qadağandır.*

*9.7. Lotereya təşkilatçısı lotereyanın (stimullaşdırıcı lotereya istisna olmaqla) dayandırılması və ya ona xitam verilməsi haqqında müvafiq olaraq səlahiyyətli orqanın və ya məhkəmə qərarının qəbul edilməsi barədə bildiriş aldıqda, oynanılmamış lotereya biletlərinin yığılmasını (məhv və ya ləğv edilməsini) və onların dəyərinin lotereya biletlərinin sahiblərinin ilk tələbi ilə ödənilməsini təmin etməlidir. Lotereya biletinin sahibinin razılığı ilə lotereya biletinin dəyərinin ödənilməsi əvəzinə ona digər lotereyada iştirak üçün eyni dəyərli lotereya bileti verilə bilər.*

*9.8. Lotereyanın dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi lotereya təşkilatçısını uduşların verilməsi (ödənilməsi) vəzifəsindən azad etmir.*

*9.9. Lotereya təşkilatçısı lotereyanın şərtlərində müəyyən olunan hallarda səlahiyyətli orqana qabaqcadan məlumat verməklə həmin lotereyanı dayandıra və ya ona xitam verə bilər. Lotereya lotereya təşkilatçısının təşəbbüsü ilə dayandırıldıqda və ya ona xitam verildikdə, bu Qanunun 9.6 – 9.8-ci maddələri tətbiq olunur.*

M a d d ə 10. **Lotereya təşkilatçısının vəzifələri**

10.1. Lotereya təşkilatçısının lotereyaların təşkili və keçirilməsi sahəsində aşağıdakı vəzifələri vardır:

10.1.1.lotereyanın qanunvericiliyə uyğun təşkilini və keçirilməsini təmin etmək;

10.1.2.qeydiyyata alınmış lotereyanın şərtlərini və onlara edilmiş əlavələri və dəyişiklikləri *media* ilə elan etmək;

10.1.3.uduş fondu oynanıldıqdan sonra (ani lotereya istisna olmaqla) 5 (beş) iş günü ərzində uduş fondu və uduşa düşmüş lotereya biletlərinin nömrələri və (və ya) seriyaları barədə məlumatı *mediada* elan etmək;

10.1.4.lotereyanın dayandırılması, onun keçirilməsinə xitam verilməsi və ani lotereyanın başa çatması barədə məlumatları *media* ilə elan etmək;

10.1.5.lotereya iştirakçısının tələbi ilə lotereyanın şərtlərinə daxil olunmuş məlumatları ona təqdim etmək;

10.1.6. *uduşlu lotereya biletləri (saxtalaşdırılmış və ya eyniləşdirilməsi mümkün olmayan biletlər istisna olmaqla) üzrə uduşların müvafiq bileti təqdim etmiş şəxsə verilməsini (ödənilməsini) təmin etmək;*[92]

10.1.7.lotereyanın təşkili və keçirilməsi ilə bağlı hesabatları *səlahiyyətli orqana* təqdim etmək. *Lotereyanın təşkili və keçirilməsi ilə bağlı məlumatların səlahiyyətli orqana təqdim olunması qaydası səlahiyyətli orqan tərəfindən müəyyən edilir;* [93]

10.1.8.lotereyanın şərtlərində nəzərdə tutulduğu halda lotereya iştirakçısının tələbi ilə qeyri-pul uduşunun dəyərinin pul ekvivalentini ödəmək;

10.1.9. *lotereyanın keçirilməsi dayandırıldıqda və ya xitam verildikdə, bu Qanunun 9.6 – 9.8-ci maddələrinin tələblərinə əməl etmək;*[94]

10.1.10. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri.

10.2. Lotereya təşkilatçısı lotereyanın şərtlərində göstərilən müddət ərzində uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərinin qəbulunu lotereya iştirakçısının ilk tələbi ilə təmin etməlidir.

*10.3. Lotereya təşkilatçısı terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması, o cümlədən hədəfli maliyyə sanksiyalarının tətbiqi məqsədilə "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidir.*[95]

~~*10.4. Lotereya təşkilatçısı Azərbaycan Respublikasında lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) təşkili və keçirilməsi ilə bağlı maliyyə bazarlarına nəzarət orqanına onun müəyyən etdiyi məbləğdə və qaydada haqq ödəyir.*~~[96]

M a d d ə 11. **Lotereya iştirakçılarının hüquqları**

11.0. Lotereya iştirakçısı aşağıdakı hüquqlara malikdir:

11.0.1. lotereyada hüquqlarının və qanuni maraqlarının müdafiəsi məqsədilə şikayətlə *səlahiyyətli orqana* və ya məhkəməyə müraciət etmək;[97]

11.0.2. lotereyanın şərtlərində nəzərdə tutulduğu halda uduşların ödənilməsi zamanı qeyri-pul uduşlarının əvəzinə onların pul ekvivalentinin ödənilməsini lotereya təşkilatçısından tələb etmək;

11.0.3. lotereya barədə bu Qanunla müəyyən edilmiş qaydada məlumat almaq;

11.0.4. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlara.

M a d d ə 12. **Məsuliyyət**

*Bu Qanunun tələblərinin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində nəzərdə tutulmuş*

*hallarda məsuliyyət daşıyırlar.*[98]

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 mart 2004-cü il
№ 594-IIQ

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 30 iyun 2009-cu il tarixli 856-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyul 2009-cu il, № 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 07, maddə 517)**
2. 4 mart 2016-cı il tarixli **156-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 mart 2016-cı il, № 57, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 422)**
3. 30 dekabr 2016-cı il tarixli **481-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 22 fevral 2017-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 02, maddə 144)**
4. 15 dekabr 2017-ci il tarixli **944-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2018-ci il, № 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 2, maddə 154)**
5. 30 oktyabr 2018-ci il tarixli **1299-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 dekabr 2018-ci il, № 282, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2469)**
6. 28 dekabr 2018-ci il tarixli **1416-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 yanvar 2019-cu il, № 24, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 33)**
7. 27 dekabr 2021-ci il tarixli **450-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1333)**
8. 27 may 2022-ci il tarixli **541-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 iyul 2022-ci il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №6, maddə 592)**
9. 20 dekabr 2022-ci il tarixli **707-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 9 fevral 2023-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 160)**
10. 17 fevral 2023-cü il tarixli **815-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 9 aprel 2023-cü il, № 73, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 4, maddə 453)**
11. 26 dekabr 2023-cü il tarixli **1080-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 fevral 2024-cü il, "Azərbaycan" qəzeti, 2 fevral 2024-cü il, № 22)**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

---

[1] 4 mart 2016-cı il tarixli **156-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 mart 2016-cı il, № 57, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 422)** ilə mətn üzrə ismin müvafiq hallarında "**müvafiq icra hakimiyyəti orqanı**" sözləri ismin müvafiq hallarında "**maliyyə bazarlarına nəzarət orqanı**" sözləri ilə əvəz edilmişdir.

[2] 28 dekabr 2018-ci il tarixli **1416-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 yanvar 2019-cu il, № 24, Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2019-cu il, № 01, maddə 33)** ilə 1-ci maddənin mətni 1.1-ci maddə hesab edilmişdir və yeni məzmunda 1.2-ci maddə əlavə edilmişdir.

[3] 27 dekabr 2021-ci il tarixli **450-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1333)** ilə 2.0.1-ci maddədən hər iki halda "(**onlara bərabər tutulan digər məlumat daşıyıcılarının**)" sözləri çıxarılmışdır və həmin maddəyə "**uduş fondunun**" sözlərindən sonra "(**virtual lotereya istisna olmaqla**)" sözləri əlavə edilmişdir.

[4] 30 oktyabr 2018-ci il tarixli **1299-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 dekabr 2018-ci il, № 282, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2469)** ilə 2.0.2-ci maddədən "**forması**" sözü çıxarılmışdır.

[5] 27 dekabr 2021-ci il tarixli **450-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1333)** ilə 2.0.5-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~2.0.5. **məqsədli lotereya** – *maliyyə bazarlarına nəzarət orqanının* qərarı ilə dövlət əhəmiyyətli layihənin maliyyələşdirilməsi məqsədilə keçirilən lotereya forması;~~

[6] 27 dekabr 2021-ci il tarixli **450-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1333)** ilə 2.0.6-cı maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~2.0.6. **uduş fondu** – lotereyanın şərtlərinə uyğun lotereyada oynanılan və uduşlar şəklində verilməsi (ödənilməsi) nəzərdə tutulan pul vəsaitlərinin, digər əmlakın (əşyanın) və xidmətlərin (işlərin) məcmusu (dəyəri);~~

[7] 27 dekabr 2021-ci il tarixli **450-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1333)** ilə 2.0.8-cı maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~2.0.8. **uduş** - uduş fondunun konkret lotereya biletinə düşən hissəsi;~~

[8] 27 dekabr 2021-ci il tarixli **450-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1333)** ilə 2.0.9-cu maddəyə "**hissəsinə**" sözündən sonra "**və (və ya) uduşa**" sözləri, "**sənəd**" sözündən sonra **", ona bərabər tutulan digər məlumat daşıyıcısı və ya elektron kod**" sözləri əlavə edilmişdir.

[9] 30 oktyabr 2018-ci il tarixli **1299-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 dekabr 2018-ci il, № 282, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2469)** ilə 2.0.11-ci maddəyə "**lotereyada**" sözündən əvvəl "**18 yaşına çatmış, könüllü şəkildə**" sözləri əlavə edilmişdir.

27 dekabr 2021-ci il tarixli **450-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1333)** ilə 2.0.11-ci maddədən **"(ona bərabər tutulan digər məlumat daşıyıcısının)"** sözləri çıxarılmışdır.

[10] 27 dekabr 2021-ci il tarixli **450-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1333)** ilə 2.0.14-cü maddədən "**rəsmi**" sözü çıxarılmışdır.

[11] 4 mart 2016-cı il tarixli **156-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 mart 2016-cı il, № 57, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 422)** ilə 2.0.14-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.0.15-ci maddə əlavə edilmişdir.

